*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 265-269* *ISSN: 2663-4406*

*Mühacirət ədəbiyyatı*

**UOT:** 821.512.162(091)

Abid Tahirli*

*Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir.* ***Qrant № EİF- KETPL-2-2015-1(25)-56/48/5***

# İSTİQLALA, İSTİQBALA İNAMIN BƏDİİ-PUBLİSİSTİK TƏCƏSSÜMÜ
## *(Əziz Alpoudun "Həyatımın hekayətləri" memuarı əsasında)*

***Xülasə***

Azərbaycan mühacirətinin tanınmış nümayəndələrindən Əziz Alpoud memuarında istiqlal uğrunda mücadilədə keçən çətin, lakin şərəfli həyat yoluna işıq salır, Azərbaycan Xalq Cümhuriyyətinin bir sıra qurucularının fəaliyyətindən söz açır, dövrün ictimai-siyasi mənzərəsini göstərir, çar və sovet Rusiyasının Qafqazdakı çirkin əməllərini, bolşevik rejiminin və kommunist ideologiyasının qorxunc simasını, antibəşər mahiyyətini, havadarlarının maddi, mənəvi dəstəyi ilə ermənilərin qəddarlıqla xalqımıza qarşı törətdiyi ağlasığmayan cinayətləri ifşa edir. O, iştirakçısı və şahidi olduğu bir çox tarixi hadisələr – Azərbaycanın müxtəlif bölgələrində erməni vəhşiliyi ilə müşayiət olunan qırğınları, Bakının erməni-bolşevik işğalçılarından azad edilməsi, sovet hakimiyyətinin ilk illərində həmvətənlərimizin min bir əziyyətlə İrana, Türkiyəyə mühacirət etməsi, Sovet İttifaqından olan mühacirlərin antibolşevik hərəkatında iştirakı haqqında kifayət qədər dəyərli məlumatlar verir.

Məqalədə memuarın ideya bədii xüsusiyyətləri təhlil olunur, aktuallığı, əhəmiyyəti dəyərləndirilir, müvafiq elmi-nəzəri qənaətlər hasil edilir.

**Açar sözlər:** mühacirət ədəbiyyatı, memuar, Əziz Alpoud, "Həyatımın hekayətləri", istiqlal mücadiləsi

## ARTISTIC AND PUBLICIST EMBODIMENT OF THE CONFIDENCE IN INDEPENDENCE AND FUTURE
### *(on the basis of memoir "The Stories of My Life" by Aziz Alpoud)*

***Summary***

One of the prominent representative of Azerbaijani emigration, Aziz Alpoud in his memoir talks about the difficult and honorable lifestyle in the struggle for the sake of independence, the activity of some founders of the Azerbaijani Democratic Republic, shows the public-political view of that period and reveals the ugly actions of Tsar and Soviet Russia in the Caucasus, the terrible face of the Bolshevik regime and the communist ideology, anti-human essence, brutal crimes committed by Armenians against our people. He gives information about many historical events that he witnessed – the massacres of Armenians in different regions of Azerbaijan, the liberation of Baku from the Armenian-Bolshevik invaders, the migration of our citizens to Iran and Turkey with thousands of problems in the early years of Soviet power and the participation of emigrants from the Soviet Union in the anti-Bolshevik movement.

In the article ideological and artistic features are analyzed, its activity and importance is evaluated, related scientific and theoretical savings are extracted.

**Key words:** emigration literature, memoir, Aziz Alpoud, "the Stories of My Life", struggle for independence

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya üzrə fəlsəfə doktoru. E-mail: habidtahirli@gmail.com

**ХУДОЖЕСТВЕННО-ПУБЛИЦИСТИЧЕСКОЕ ОТРАЖЕНИЕ ВЕРЫ В НЕЗАВИСИМОСТЬ**
***(на материале мемуаров Азиза Алпоуда "Повесть моей жизни")***

***Резюме***

В мемуарах одного из видных представителей азербайджанских эмигрантов Азиза Алпоуда освещается трудный, но славный путь, пройденный в борьбе за независимость, говорится о деятельности ряда основателей Азербайджанской Демократической Республики, показана общественно-политическая обстановка той эпохи, разоблачены происки царской России на Кавказе, коварная, антигуманная сущность большевистского режима и коммунистической идеологии, бесчеловечные преступления армян, совершенные против нашего народа с помощью материальной и моральной поддержки их заступников. Будучи участником и свидетелем многих исторических событий, автор мемуаров приводит ценные сведения о событиях, очевидцем которых он был, – беспощадного истребления населения, творимого армянами в различных областях Азербайджана, освобождения города Баку от армянских большевистских захватчиков, всех тягот наших соотечественников, вынужденных эмигрировать в Иран и Турцию в первые годы советской власти, участии эмигрантов из Советского Союза в антибольшевистском движении.

В статье анализированы идейно-художественные особенности этих мемуаров, оценены их актуальность и значимость, сделаны соответствующие научно-теоретические обобщения.

**Ключевые слова:** эмигрантская литература, мемуары, Азиз Алпоуд, "Повесть моей жизни", борьба за независимость

**Giriş.** Mühacirət memuarları Azərbaycanın azadlığı uğrunda mübarizə yolunu əks etdirən ensiklopediya, istiqlal mücadiləsi tarixini işıqlandıran salnamədir. Bu janrda yazılan əsərlər yazıçının bilavasitə şəxsi tərcümeyi-halı, həyatı, təfəkkür tərzi, əqidəsi ilə sıx bağlıdır, eyni zamanda "Azərbaycan davası"nın önəmli hadisələrini, qəlbi Vətən həsrəti və məmləkət azadlığı ilə vuran mücahidlərin ölümsüz obrazlarını yaşadan, mühüm ədəbi-mədəni, tarixi, ictimai-siyasi əhəmiyyət kəsb edən mötəbər mənbə, dəyərli və zəngin milli-mənəvi xəzinədir.

B.E.Ağaoğlunun "Solovkidə gördüklərim", Ceyhun Hacıbəylinin "Bir il xəyallarda... və bütöv bir ömür", Mirzə Abay Dağlının "Onlar türklərdi", M.Ə.Rəsulzadənin "Bir türk milliyyətçisinin Stalinlə ixtilal xatirələri", Teymur Atəşlinin "Stalinqrad cəhənnəmində 95 gün döyüşən türk", Nağı Şeyxzamanlının "Azərbaycan istiqlal mücadiləsi xatirələri", Əbdülvahab Yurdsevərin "Azərbaycan istiqlal savaşından səhnələr", Məhəmməd Altunbayın "Düşmən gəlir", "Hürriyyətə uçan türk", İsmayıl Saryalın "Bakı rüzgarı", İhsan Özköşəlinin "Bir ömrün döngələri" və s. kimi memuarlar məhz bu ideallarla süslənmişdir.

Əziz Alpoudun (Mir Əbdüləziz Mir Seyfəddin oğlu Seyidov. Dilican mahalı, Alpoud kəndi 1895-1988, Ankara) haqqında bəhs edəcəyimiz "Həyatımın hekayətləri" [1] memuar romanının taleyi müəllifin həyat yolu kimi keşməkeşli olmuşdur. İstedadlı yazıçı, publisist Zakir Sadatlı (Zakir Əmin oğlu Aslanov, 1961-2013) bir təsadüf nəticəsində Əziz Alpoudun qızı Gülər Somer ilə görüşür və "Həyatımın hekayətləri"nin əlyazmasını ondan alır. Bu tapıntını taleyinin hədiyyəsi kimi qəbul edən Zakir Sadatlı əsəri dilimizə uyğunlaşdırır və 2011-ci ildə "Taleyin xəritəsi" adlı ön söz və "Şərhlər"lə nəşr etdirir. Bununla da kifayətlənməyən Zakir Sadatlı əsəri türk dilində nəşrə hazırlayır və 2012-ci ildə memuar "Hayatımın Hikayeleri" adı ilə "Bəngü" nəşriyyatı tərəfindən Ankarada çap edilir.

Altı yüz qırx beş səhifədən – "Giriş" və 185 yarımsərlövhədən ibarət "Həyatımın hekayətləri" bir istiqlal mücahidin sürgünlərlə, təqiblərlə, təhdidlərlə keçən çətin, lakin şərəfli həyat yoluna işıq salır, Azərbaycan Xalq Cümhuriyyətinin bir sıra qurucularının fəaliyyətini dəyərləndirir, dövrün ictimai-siyasi mənzərəsini təsvir edir, çar və sovet Rusiyasının Qafqazdakı çirkin əməllərini, bolşevik rejiminin və kommunist ideologiyasının qorxunc simasını, mahiyyətini, havadarlarının maddi, mənəvi dəstəyi ilə ermənilərin qəddarlıqla xalqımıza qarşı törətdiyi ağlasığmayan cinayətləri ifşa edir. Müəllif iştirakçısı və şahidi olduğu bir çox tarixi hadisələri – Azərbaycanın müxtəlif bölgələrində erməni vəhşiliyi ilə müşayiət olunan qırğınları, Bakının erməni-bolşevik işğalçı-

larından azad edilməsini, sovet hakimiyyətinin ilk illərində həmvətənlərimizin min bir əziyyətlə İrana, Türkiyəyə mühacirət etməsini, Sovet İttifaqından olan mühacirlərin antibolşevik hərəkatında iştirakını və s. həm işıqlandırır, həm də dəyərləndirir.

Azadlıq və istiqlal ideyasını özünə həyat kredosu seçən müəllif memuarı ilə bu janrın imkanlarından bəhrələnərək mühacirət irsinin, "Azərbaycan davası"nın tarixi və milli bir savaşın qəhrəmanlarına xas bədii-estetik düşüncənin diqqətəlayiq nümunəsini yarada bilmişdir. Sovet İttifaqının dünyaya meydan oxuduğu bir dövrdə qələmə alınan memuarı maraqlı və təsirli edən əsas məqamlardan biri müəllifin əzab və işgəncələrə rəğmən sonadək millətin və məmləkətin istiqlala qovuşacağına, parlaq istiqbala yetişəcəyinə sarsılmaz inamı, tükənməyən ümididir. Əsərin əvvəlindən sonunadək bu ruh, bu inanc, bu duyğu sətirlərə hakimdir. Memuarın başlanğıcında "İnşallah... illərdən bəri bir millət olaraq çəkdiyimiz zillət də sona yetmiş olar. Və Müstəqil Azərbaycan Cümhuriyyətinin üç rəngli bayrağı təkrar Millət Məclisinin binası üstündə dalğalanar. Onu Xəzərdən qopub gələn küləklər salamlayıb, oxşayar..." [1, s.11] yazır, əsərinin sonunu da eyni tərzdə bitirir: Bu gün həyatımda fərəhli bir gündür!.. Partiyamızın (Milliyyətçi Hərəkat Partiyası) mitinq günü idi... Tandoğan meydanından yürüşə başladıq. Ərzurumdan gələn gənc "Bozqurdlar" özləri ilə bir Azərbaycan bayrağı da gətirmişdilər... Sevinclə ona sarılıb, öpdüm... Və 6 saat onu yürüşdə daşıdım... Yol boyu qızlar bayrağımızın üstünə qırmızı qərənfillər atırdılar... Bunlardan birini qaldırdım və xatirə olaraq cibimə qoydum... İnşallah, bir gün bu bayraq yenə də əvvəlki yerini tutacaq və Millət Məclisi binasına gətirilib, əzəli yerinə asılacaq!" [1, s.643].

Memuarda Azərbaycan Xalq Cümhuriyyəti qurucularının həyat və fəaliyyəti, onların arasındakı münasibətlər barədə maraqlı məlumatlar da kifayət qədərdir. Əlbəttə, bu cür fikirlər – istər şişirdilmiş, istər təhrif olunmuş mülahizələr Əziz Alpoudun subyektiv mühakimələridir, bəzən də partiyalı münasibətin təzahürü kimi meydana çıxdığından mübahisəli, ziddiyyətli, hətta yanlış təəssürat yaradır. Əziz Alpoudun memuara "səpələnmiş" faktlar əsasında ərsəyə gələn bioqrafiyası onun öz portretinin də yaradılmasına imkan verir. Kiçik yaşlarından xatirə dəftərində qeydlər apardığını yazan Əziz Alpoud 1961-ci ildən memuar üzərində işləyir və 1972-ci ilədək olan dövrü əhatə edən bədii-publisistik əsərini- həyatının hekayətlərini yazır.

Əziz Alpoud memuarda Azərbaycan Xalq Cümhuriyyətinin bir sıra liderlərinin, istiqlal mücadiləsi silahdaşlarının fəaliyyəti, xarakteri, azadlıq uğrundakı mübarizədə rolu, yeri, mühacirətdəki soydaşlarımızın problemləri, onların arasındakı qarşılıqlı münasibətlər və s. barədə geniş bəhs edir. Əsərdə Ömər Faiq Nemanzadə, Əhməd Ağaoğlu, Nəriman Nərimanov, Fətəli Xan Xoyski, Nəsib bəy Yusifbəyli, Məhəmməd Əmin Rəsulzadə, Nağı Şeyxzamanlı, general Tlexas, Ceyhun Hacıbəyli, Gəncə üsyanının başçısı polkovnik Cahangir Kazımbəy, Xudadat bəy Məlikaslanov, Xosrov bəy Sultanov, Əkbərağa Şeyxülislam, Mustafa Vəkiloğlu, Məhəmməd Sadıq Aran, Ağarza Tağıoğlu, Fuad Əmircan, İsmayıl Saryal, Əbdürrəhman Fətəlibəyli, eləcə də Atatürk, Ənvər Paşa, Xəlil Paşa, Cəlal Bayar, Alparslan Türkeş, Mirzə Kiçikxan, Çiçerin, Hitlerin yavəri və digər tarixi şəxsiyyətlər haqqında yazılanlar yeni araşdırmalar aparmaq, bu və ya digər məsələlər barədə geniş fikir mübadiləsi və müzakirələrin, habelə, araşdırmaların aparılması üçün də ciddi əsas verir.

Görkəmli mollanəsrəddinçi, ictimai-siyasi xadim Ömər Faiq Nemanzadənin, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından, istiqlal qurbanlarından olan Nəsib bəy Yusifbəylinin işıqlı siması Ə.Alpoudun xatirələrində ustalıqla canlandırılır.

Əsərdə Azərbaycan istiqlal mücadiləsi tarixində özünəməxsus və şərəfli yeri olan Nağı Şeyxzamanlının obrazı kifayət qədər əhatəli və dolğun təqdim edilmişdir. Ə.Alpoud Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakının hərbi general-qubernatoru olmuş general-mayor Murad Gəray Tlexas haqqında ürək yangısı və qədirbilənliklə bəhs edir. Bədii-publisistik əsərdə Azərbaycan Cümhuriyyətinin qurucularından, onun ilk baş naziri, görkəmli dövlət xadimi Fətəli Xan Xoyski haqqında məhəbbətlə söz açılır, onun böyük diplomat, mahir təşkilatçı, cəsarətli siyasətçi, vətənpərvər ziyalı olduğu ibrətamiz və inandırıcı faktlarla göstərilir. Ə.Alpoud F.Xoyskini "Dünya səviyyəli bir dövlət adamı" – deyə xarakterizə edir və onun general Tomsonla bir görüşünü qələmə

alır: “Türkiyəli qardaşlarımızın yerinə ingilislər məmləkətimizə girdilər. Amma bu arada komandirləri olan general Tomsona şikayətlər göndərilməyə başladı. İngilis əsgərləri sakit (dinc) durmurlar, sərxoş olub xalqa sataşır, silah satırdılar. Baş nazirimiz Fətəli Xan Xoyski Tomsona müraciətlə burada nə axtardıqlarını soruşmuşdu. Əgər qonaq gəlmişlərsə, dinc otursunlar. Özlərini işğalçı qüvvələr hesab edirlərsə, Azərbaycan İngiltərə ilə müharibə etməmişdir. Dolayısı ilə qanuni bir haqları yoxdur, geri çəkilib getməlidirlər. Tomson özünü haqlı göstərməyə çalışanda da Baş nazirimiz: “Müsafirləri biz sevirik və qonaqpərvərliyimizi də bu günə qədər göstərdik. Ancaq artıq əsgərlərinizin pis hərəkətləri hövsələmizi (səbrimizi) tükəndirdi. Zəhmət olmasa, buradan çəkilin. Əks təqdirdə, mən kişilərimizə əmr edərəm, evlərinə çəkilsinlər və sizləri buradan qadınlarımız bayıra atarlar” [1, s.152]. Ə.Alpoudun istiqlal qurbanlarının və qəhrəmanlarının taleyi ilə yazdıqları nə qədər kədərli, ağır olsa da, bu sətirlərdən Vətənin istiqlallı sabahına bir ümid boylanır.

Təəssüflə qeyd etməliyik ki, mühacirət tarixində və irsində ara-sıra nəzərə çarpan, şəxsi mənafedən, əsassız iddialardan, yerliçilik, tayfabazlıq kimi naqis cəhətlərdən qaynaqlanan, yaxud partiya mənsubiyyətindən asılı olaraq ortaya çıxan münaqişələrə, ayrı-seçkilik təzahürlərinə, böhtan və qarayaxmalara da təsadüf edilir. Şəfi bəy Rüstəmbəylinin, Xəlil Xasməmmədovun, Mustafa bəy Vəkilovun, Fuad Əmircanın, Saffet Zərdabinin bu istiqamətdə pis nümunəsi təəssüf ki, Əziz Alpouddan da yan keçməmişdir. Ə.Alpoud əsərində daha çox “Müsavat” partiyasını, onun lideri Məhəmməd Əmin Rəsulzadəni tənqid edir. Bu cəhd real tarixi vəziyyəti, ictimai-siyasi şəraiti nəzərə almadan, qüvvələr nisbətini dəyərləndirmədən Azərbaycan Xalq Cümhuriyyətinin süqutunda kimləri isə günahlandırmaq, eyni zamanda Azərbaycan tarixində siyasi çəkisi ilə yox, yalnız bir neçə tanınmış nümayəndəsi ilə yadda qalan, Əziz Alpoudun da üzvü olduğu “Əhrar” partiyasının və özünün xidmətlərini şişirtmək naminə atılan addım təəssüratı yaradır. Ə. Alpoudun M. Ə. Rəsulzadəyə qərəzli münasibəti XX əsrin 20-ci və 50-ci illərindəki müxalif qüvvələrdən heç də geri qalmır, onun Azərbaycan Xalq Cümhuriyyəti tarixindəki rolu, yeri təftiş, təhrif, tənqid edilir. Ə.Alpoudun eyni və daha kəskin mövqeyini Mirzə Bala Məhəmmədzadəyə qarşı münasibətində də görürük.

Əziz Alpoudun bəzi silahdaşlarına, fərqli partiyaya mənsub bir sıra istiqlal mücahidlərinə münasibətində bu cür ifrat qınağa, tənqidə rast gəliriksə, onun Vətən satqınlarına, xəfiyyə və xainlərə qarşı barışmaz və amansız olduğu da diqqətdən yayınmır. O, “sapı özümüzdən olan baltaları” “sinəmizdə bəslədiyimiz “yerli xainlər, yəni içimizdəki şeytanlar” adlandırır və sonda onların aqibətinin faciə ilə nəticələndiyini göstərir.

Əsərdə ermənilərin “Daşnak” partiyasının xalqımıza qarşı düşmənçilik hərəkətlərinə, bədnam və məkrli qonşularımızın havadarlarının maddi, mənəvi dəstəyi ilə törətdiyi saysız-hesabsız cinayətlərə, qətliamlara və vəhşiliklərə dair ciddi, tutarlı faktlar var. O, şahidlik etdiyi, iştirakçısı olduğu, gözü ilə gördüyü hadisələrə, tarixi faktlara və sənədlərə istinadən erməni vandalizmindən bəhs edir.

Memuarın diqqətçəkən məziyyətlərindən biri dilinin zənginliyi, koloriti, canlı, oynaq və obrazlı olmasıdır. Mövzu baxımından maraqlı və aktual olması ilə yanaşı, əsərdə bədii təsvir və ifadə vasitələrinin zənginliyi də memuarın oxunaqlığını şərtləndirən amillərdəndir. Əsərdən məlum olur ki, Ə.Alpoud mətbuatla sıx əlaqə saxlayır, əməkdaşlıq edir, müxtəlif səpkili elmi-publisistik əsərlər yazır, tərcüməçilik fəaliyyəti ilə məşğul olurdu. Xalqının adət-ənənəsinə sadiq, tarixi köklərə vurğun, milli-mənəvi dəyərlərə bağlı müəllifin eyni zamanda müəyyən yaradıcılıq təcrübəsinə malik ziyalı olması memuarın həm ideya-məzmun, həm də sənətkarlıq baxımından sanballı olmasına zəmin yaratmışdır.

Sadaladığımız bütün müsbət cəhətləri ilə yanaşı, memuara xələl gətirən bəzi məqamların olduğunu da qeyd etməliyik. Bəzən hadisələrin tarixi-xronoloji ardıcıllığı pozulur ki, bu müəyyən çaşqınlıq yaradır. Ümumiyyətlə, memuarın ciddi naqis cəhətlərindən başlıcası müəllifin şəxsi münasibətdən ictimai rəyin formalaşmasına təsir gücü kimi istifadə etməsinə meyilliliyidir. Memuarda hadisə və ya faktlar bu və ya digər formada təkrarlanır ki, bu da mətnə ağırlıq, oxucuya yorğunluq gətirir.

Bəzən müəllifin real "mən"i onun ideal "mən"inə kölgə salır, başqa sözlə desək, "dediyimiz "mən"lər bir-birinə uyğun gəlmir, bir-birini tamamlamır. Memuarda bəzən macəraçılıq baş alıb gedir, bu xüsusilə müəllifin velosipedlə ağır coğrafi, hərbi-siyasi, maddi şərtlər daxilində İrana, oradan Türkiyəyə keçməsi prosesini uzun-uzadı təsviri zamanı özünü göstərir.

**Nəticə.** Bu kimi xırda-para nöqsanlar memuarın sanbalına, əhəmiyyətinə ciddi xələl gətirmir. Əziz Alpoudun "Həyatımın hekayətləri" memuarı haqqında dediklərimizi ümumiləşdirsək, aşağıdakı qənaətə gəlmək olar. Azərbaycan mühacirət ədəbiyyatının nadir və maraqlı nümunələrindən olan memuar:

- təkcə Əziz Alpoudun yaradıcılığında, mühacirət irsində deyil, ümumən Azərbaycan ədəbiyyatında xüsusi yeri olan bədii-sənədli nümunədir;
- ədəbi-mədəni, tarixi, elmi, ictimai-siyasi əhəmiyyət kəsb edir və göstərilən sahələrin tədqiqi üçün dəyərli mənbədir;
- ideya-məzmun cəhətdən dolğun və sanballıdır;
- "Azərbaycan davası"nın bədii-publisistik təzahürü, bu ideyanın dəyərli daşıyıcısıdır;
- Azərbaycan milli hərəkatının müxtəlif mərhələləri haqqında özünəməxsus bədii tədqiqatdır;
- gənclərin, indiki nəslin Vətənə sədaqət, Azərbaycanın müstəqilliyinə, dövlətçiliyinə məhəbbət, milli-mənəvi dəyərlərə, adət-ənənələrə hörmət və sevgi ruhunda tərbiyəsinə, formalaşmasına təsirli vasitədir;
- Azərbaycan mühacirət ədəbiyyatının, xüsusən onun memuar janrındakı nümunələrin öyrənilməsi, dəyərləndirilməsi nöqteyi-nəzərindən faydalıdır;
- mühacirət ədəbiyyatının, onun mühüm qolu olan memuar janrının, o cümlədən Əziz Alpoud yaradıcılığının dil, üslub, sənətkarlıq problemlərinin araşdırılması üçün çox mühüm vasitədir.
- sovet həyat və düşüncə tərzinin naqisliklərini, bolşevik rejiminin və kommunist ideologiyasının antibəşər təbiətini göstərən və ifşa edən əvəssiz nümunələrdəndir;
- istiqlal qəhrəmanlarının və qurbanlarının əziz xatirəsinə işıq salan, onların parlaq ideya və əməllərini yaşadan bədii-sənədli salnamədir;
- mücahidlərin işğala, onun fəsadlarına qarşı mücadilənin nə qədər ağır, lakin şərəfli olduğunu əks etdirir, azadlıq qəhrəmanlarının mübarizə yoluna işıq salır, sələfləri mətin, cəsur, dözümlü olmağa səsləyir, düşmənə, köləliyə, mütiliyə nifrət hissi aşılayır;
- erməni vandalizmini konkret faktlarla ifşa edir, xalqımızın ədalətli, humanist mövqeyini bəyan edir, haqq işimizə bəraət qazandırır;
- Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin əbədi, sarsılmaz və təmənnasız olduğunu təsdiqləyir, bu münasibətlərin daha da möhkəmləndirilməsinə xidmət edir;
- 1920-30-cu və 50-ci illərdə Azərbaycan mühacirlərinin sovet rejimi və kommunist ideologiyasına qarşı fərqli mücadilə formasından yaranan fikir ayrılıqlarının mahiyyətini, mühacirlərin bu və digər problemlərlə bağlı qarşılıqlı ittihamlarının səbəblərini öyrənmək və dəyərləndirmək baxımından da maraqlıdır;
- Əziz Alpoudun digər ciddi yaradıcılıq nümunələrinin, o cümlədən elmi və bədii tərcümələrinin olduğuna dəlalət edir və yeni axtarışlar üçün əsaslar verir;
- mühacir yazıçının timsalında soydaşlarımızın ikinci Vətəni Türkiyədəki həyat tərzinə, qardaş ölkədə gedən ictimai-siyasi proseslərə, Mustafa Kamal Atatürkün milli dövlət quruculuğu sahəsindəki fəaliyyətinə bir baxışdır.

**ƏDƏBİYYAT**

1. Alpoud Əziz. "Həyatımın hekayətləri". Əlyazmanı üzə çıxaran, tərtibçi və ön sözün müəllifi Zakir Sadatlı. Bakı, "Qanun", 2011.